***❒ Son 15 ildə Azərbaycan yeni yüksəliş mərhələsinə qədəm qoyaraq dinamik inkişafını davam etdirmişdir. Əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayan ölkəmizdə qarşıya qoyulmuş bütün vəzifələr uğurla və vaxtında icra edilir. Ötən müddət ərzində beynəlxalq mövqeləri daha da möhkəmlənən Azərbaycan hazırda bütün dünyada etibarlı tərəfdaş kimi tanınır. Ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, imzalanan ikitərəfli və çoxtərəfli müqavilələr mövqelərimizi daha da möhkəmləndirir. Cari ildə ümumi daxili məhsul 0,8 faiz artmışdır, qeyri-neft sektorunda 1 faiz, sənaye istehsalında 2 faiz, qeyri-neft sənayesində 10,8 faiz, kənd təsərrüfatında da 4,3 faiz artım qeydə alınmışdır. İnflyasiya cəmi 2,6 faiz, əhalinin gəlirləri isə 9,5 faiz olmuşdur. Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur ki, bu vəsaitin də 5,6 milyard dolları qeyri-neft sektoruna yatırılmışdır. Ölkəmizin valyuta ehtiyatları 45 milyard dollar səviyyəsindədir. Bu müddətdə xarici ticarət dövriyyəsi 37 faiz, qeyri-neft ixracı təxminən 14 faiz artmışdır. 85 min daimi iş yeri açılmışdır.***

# Göz gördü, könül sevdi şimal incisi Qubanı!




Ölkəmizin hər yerində olduğu kimi Quba rayonunda da cari ildə mühüm işlər görülmüş və qarşıya qoyulmuş vəzifələrin maksimum həllinə səy göstərilmişdir. Görülən işlər qısa müddət ərzində və keyfiyyətlə yerinə yetirilmiş, rayon sakinləri tərəfindən böyük razılıqla qarşılanmışdır.

Rayon üzrə ümumi məhsul buraxılışının həcmi 9 ay ərzində 297 milyon 763 min 700 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz artım), sənaye məhsullarının ümumi həcmi 20 milyon 974 min



900 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artım), kənd təsərrüfatı məhsullarının həcmi 131 milyon 925 min manat olmuşdur.

Rayonun gəlirləri 6 milyon 508 min manat proqnoza qarşı 8 milyon 60 min manat olmuş və ya proqnoz 123,8 faiz icra edilmişdir.

Əhalinin fasiləsiz təbii qazla, elektrik enerjisi, içməli su, internet və telefon xidmətləri ilə təmin edilməsi üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Təbii qaza olan tələbatın tam və fasiləsiz ödənilməsi üçün Quba şəhəri ərazisində müxtəlif diametrli, ümumi uzunluğu 3 min metr olan yeni qaz xətləri çəkilmiş, payız-qış mövsümünə hazırlıqla əlaqədar Zərdabi və Barlı qəsəbələrində, Alekseyevka, Paşaoba, Cağacıq və Amsar kəndlərində 9 ədəd yeni qaz tənzimləyici quraşdırılmışdır. Şəhərin Heydər Əliyev prospektində, SMU-12 və 29-cu məhəllədə müxtəlif diametrli, ümumi uzunluğu 715 paqonmetr olan qaz xətlərinin çəkilməsi təmin edilmiş, bəzi xətlərdə təmir-bərpa işləri görülmüş, 1213 yeni fərdi yaşayış evi qazlaşdırılaraq məişət qaz sayğacı ilə təmin olunmuşdur. Rayonun Güneyməhlə və Ərməki kəndlərinə də təbii qaz xətti çəkilmişdir.

Quba şəhərində və rayonun digər yaşayış məntəqələrində elektrik enerjisi sisteminin dayanıqlığını artırmaq məqsədilə elektrik verilişi xətlərində 121 ədəd istismara yararsız dayaq yeni metal dayaqlarla əvəz olunmuş, 425 ədəd izolyator dəyişdirilmiş, 9 min 100 paqonmetr yararsız naqil yeni naqillərlə əvəz olunmuşdur.

Cari ildə rayon sakinlərinə 10 milyon 64 min 100 manat dəyərində elektrik enerjisi verilmiş və 9 milyon 188 min manat vəsait toplanmışdır.

Rayon əhalisinin içməli və suvarma suyuna olan tələbatının təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə rayonun Alpan, Əlibəyqışlaq, Birinci Nügədi, Vəlvələ və Zizik kəndlərinin hər birində 1 ədəd subartezian quyu qazılması, Ağbil, Alekseyevka, Möhüc və



Talıbıqışlaq kəndlərində içməli su sisteminin qurulması nəzərdə tutulur. Hazırda Əlibəyqışlaq kəndində su quyusunun qazma işləri və Möhüc kəndində son tamamlama işləri aparılır.

Rayonda sahibkarlığın inkişafı ilə əlaqədar Sahibkarlığın İnkişafı Fondu tərəfindən 20 layihəyə 336 min 500 manat vəsait ayrılmış və nəticədə yeni iş yerləri açılmışdır.

Rayonda tikinti, abadlıq və quruculuq sahəsində nəzərdə tutulmuş işlər sürətlə və yüksək keyfiyyətlə həyata keçirilir.

Şəhərin Heydər Əliyev prospektinin yuxarı hissəsində, 5-ci məhəllə ərazisində yeni üslubda və bütün müasir tələblərə cavab verən, iki mərtəbəli 100 yerlik uşaq bağçası binasında, tikintisinə 2014-cü ildən başlanmış rayon mərkəzi xəstəxanasının müasir tipli yeni binasında, həmçinin tikintisinə bu ilin fevral ayında başlanmış və yüksək zövqlə salınmış "Gənclər Parkı"nda işlər başa çatdırılaraq əhalinin istifadəsinə verilmişdir. Şəhərdə olan 45 ədəd çoxmənzilli yaşayış binasının 34 min kvadratmetr dam örtüyü dəyişdirilmiş, Heydər Əliyev prospekti 1, 2A və 2V ünvanında və Heydər Əliyev prospekti 196 ünvanında yerləşən 5 mərtəbəli binaların fasadları əsaslı təmir olunmuş, binalara yeni üzlük materialları vurulmuşdur.

Köhnə avtovağzal ərazisindəki 5 mərtəbəli binanın fasadının yüksək keyfiyyətlə təmir edilməsi və piyada keçidinin müasir dizaynla yenidən qurulması əraziyə yeni görkəm bəxş etmişdir.

Şəhərdə aparılan abadlıq işləri çərçivəsində köhnə avtovağzal ərazisində səkilər tametlə üzlənmiş, xeyli asfalt örtüyü yenilənmiş, "Nizami" parkında yenidənqurma işləri aparılmışdır. Əliqulu Nərimanov küçəsində "ABAD Factory" istehsalat kompleksinin binasında əsaslı təmir işləri yekunlaşmış və həmin ərazidə müasir üslubda yeni park salınmışdır.

Quba Soyqırımı Memorial Kompleksində tikinti-abadlaşdırma tədbirləri həyata keçirilmiş, kütləvi məzarlığın yerində xatirə abidəsi ucaldılmışdır.

Bundan əlavə şəhərdə köhnə və yararsız binalarda yerləşən 2 və 10 saylı uşaq bağçaları üçün yeni binaların tikintisi planlaşdırılmışdır.

Bu bağçaların köçürülməsi məqsədilə nəzərdə tutulmuş köhnə qeyri-yaşayış binasında əsaslı təmir işləri aparılaraq dam örtüyü, otaqlar, sanitar qovşaqları, qapı və pəncərələri təmir olunmuş, istilik sistemi quraşdırılmışdır. Hazırda uşaq bağçaları həmin binada fəaliyyət göstərir.

2018-ci ilin ən böyük layihələrindən biri olan və Quba şəhərinin xarici görünüşünü əsaslı şəkildə dəyişdirəcək "Yeni Quba" yaşayış massivində tikinti işləri yüksək sürətlə davam etdirilir.

Şəhərin Vaqif küçəsində



"Qubaekoaqrar" kənd təsərrüfatı malları istehsalı zavodunun tikintisi də başa çatdırılmış, Qonaqkənd qəsəbəsində 25 yerlik xalça emalatxanası əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Rayonun giriş hissəsində, İdrisiqışlaq kəndinin ərazisində "Giriş-qala" kompleksi inşa edilmiş, kompleksin ətrafında yaşıllıq zolağı salınaraq abadlaşdırılmış və müasir işıqlandırma sistemi qurulmuşdur.

Bakı-Quba yolunun İqrıq kəndi ərazisində yol kənarında 2, Paşaoba kəndi ərazisində 2 və Quba-Xınalıq yolunun Qımılqazma kəndi ərazisində 1 ədəd bazar tikilərək əhalinin istifadəsinə verilmişdir.

Rayonun avtomobil yollarının yenidən qurulması, təmiri və yol kənarlarının abadlaşdırılması istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir.

Şabran rayonunun Gəndob kəndi ərazisindən başlayaraq Quba şəhəri ərazisindən keçməklə Fətəli xan küçəsinin sonunadək 46 km uzunluğunda avtomobil yolu frezlənərək yenidən asfalt örtüyü döşənmişdir. Bu istiqamətdə asfaltlaşdırma işləri hazırda davam etdirilir və rayonun Küsnətqazma kəndi ərazisinə qədər davam etdirilməsi planlaşdırılır.

Uzun illər yerli əhali üçün böyük narahatlıq yaradan 23 km uzunluğunda, 10 kəndi birləşdirən Hacıhüseynli–Gənclər qəsəbəsi avtomobil yolu və bu yola birləşən digər yolların, daha sonra 33 kilometr uzunluğunda İdrisiqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun asfaltlaşdırılması işləri başa çatdırılaraq əhalinin istifadəsinə verilmişdir.

Quba-Xaçmaz avtomobil yolunun 14 km hissəsi yenidən qurulmuşdur.

Bakı-Quba avtomobil yolunun Alekseyevka kəndi ərazisindən keçən hissəsində 2 km məsafədə səkilər asfaltlanmış və yol boyu şam ağacları əkilərək yaşıllıq zolaqları salınmış, bu ərazidə Quba-Bakı və Quba-Xaçmaz avtomobil yollarını birləşdirən kənddaxili yola yeni asfalt örtüyü döşənmişdir.

Quba-Qonaqkənd yolunun Təngəaltı kəndindən keçən hissəsində 3 km məsafədə, Qonaqkənd qəsəbəsinin daxilində isə 500 metr məsafədə yolun asfaltlanma işləri aparılmışdır.

Quba-Xınalıq yolunun Qımılqazma kəndi ərazisində 900 metr hissədə yol genişləndirilmiş və yolun kənarına piyada səkiləri quraşdırılmışdır.

Quba şəhərinin Vaqif, Cəfər Cabbarlı, Fətəli xan, Həsən Əliyev,



Nadir İbrahimov, Xətai, Maksim Qorki, Memar Əcəmi, Hacı Tağı Rüstəmov, Dağıstan, Kərim Kərimov, Qələbə, Azadlıq və Səməd Vurğun, Abdurəhmanov, Tofiq Əhmədov, Şirəli Axundov və Camo Hacınski küçələrində asfalt örtüyündə təmir işləri aparılmış və şəhərin küçələrinə ümumilikdə 33 min 457 kvadratmetr asfalt örtüyü döşənmişdir.

Yol hərəkətinin tənzimlənməsi məqsədilə Bakı-Quba yolunun 164-cü kilometr hissəsində, şəhərin Heydər Əliyev prospektinin Bakı şəhəri və Xaçmaz rayonu istiqamətlərində, həmçinin Vaqif küçəsi ilə kəsişməsində yerləşən dairənin yenidən qurulması təmin edilmişdir.

Kənd təsərrüfatının inkişafı ilə bağlı rayonda bir sıra işlər görülmüşdür. Cari il üçün 10 min 284 hektar buğda, 1992 hektar arpa sahəsi əkilmişdir ki, bu sahələrdən də müvafiq olaraq 24 min 707 ton buğda, 4183 ton arpa əldə olunmuşdur.

Rayon üzrə cari ildə 12 min 228 ton kartof, 1234 ton kələm, 1499 ton xiyar, 6096 ton pomidor, 2217 ton soğan, 625 ton sarımsaq və 537 ton tərəvəz, 101 min 800 ton alma, 3023 ton armud, 2249 ton gilas, 2249 ton gavalı, 349 ton alça, 499 ton fındıq və qoz tədarük edilmişdir.

Rayonda çoxsaylı yubiley və təqdimat mərasimləri, maarifləndirici tədbirlər keçirilmiş, tarixi, bayram və anım günləri ilə bağlı çoxsaylı silsilə tədbirlər təşkil olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünün rayonda yüksək səviyyədə qeyd edilməsi məqsədilə geniş tədbirlər planı hazırlanmış və rayonun bütün idarə, müəssisə və təşkilatlarında, hər bir yaşayış məntəqəsində bu böyük tarixi şəxsiyyətin əziz xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlər təşkil edilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 10 yanvar 2018-ci il tarixdə imzaladığı və cari ilin respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi barədə sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rayonda çoxsaylı tədbirlər, konfranslar, müsabiqələr, sərgilər və idman yarışları təşkil olunmuşdur.

Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar rayonda dövlət rəsmilərinin, çoxsaylı qonaqların və minlərlə rayon sakininin iştirakı ilə Quba Soyqırım Memorial Kompleksinə yürüş və Kompleksdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Soyqırımların dərsləri" mövzusunda respublika elmi konfransı keçirilmişdir. Bu tədbirlərdə bir sıra rəsmi şəxslər, Milli Məclisin deputatları, tanınmış elm xadimləri, Azərbaycandakı müxtəlif dini konfessiyaların rəhbərləri, xarici qonaqlar iştirak etmişlər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə artıq beşinci ildir ki, reallaşan "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində 40 nəfər rayon məktəblisi Lənkaran-Masallı-Astara marşurutu üzrə doqquzuncu tur-aksiyada iştirak etmiş, respublikamızın 17 şəhər və rayonundan olan 700 nəfərə yaxın məktəbli isə rayonumuzun görməli yerləri ilə tanış olmuşlar.

2018-ci il mayın 23-də Quba Olimpiya Kompleksində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş ümumrespublika "Ailə Bayramı" keçirilmişdir.







Ötən dövrdə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, təlim-tərbiyənin keyfiyyətinin artırılması istiqamətində önəmli işlər görülmüşdür. Zərqova kənd tam orta məktəbində daxili imkanlar hesabına aparılan əsaslı təmir işləri başa çatdırılmışdır.

Prezident İlham Əliyevin 2018-ci il 2 fevral tarixli sərəncamına əsasən Nütəh, Qarxun, Çarxaçu, Dərk, Cimi, Rük, Alıc və Zıxır kəndlərində yeni modul tipli məktəb binalarının tikintisi işlərinə başlanılmış, Alıc kənd ibtidai məktəbinin modul tipli binası isə artıq istifadəyə verilmişdir.

Bu il ali məktəblərə qəbul imtahanlarında 1266 nəfər abituriyent iştirak etmişdir ki, onlardan da 515 nəfəri tələbə adını qazanmışdır.

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin binasında əsaslı təmir işləri başa çatdırılmış, rayon icra hakimiyyəti tərəfindən kitabxanaya 550 adda 7495 nüsxə kitab hədiyyə olunmuşdur.

2018-ci ilin 9 ayı ərzində Quba Soyqırım Memorial Kompleksini 6 min 758 nəfəri xarici ziyarətçilər olmaqla, ümumilikdə 75 min nəfər ziyarət etmişdir.

2018-ci ilin 9 ayı ərzində keçirilən zona və respublika səviyyəli idman yarışlarında iştirak edən 301 nəfər idmançı 43 qızıl, 33 gümüş və 30 bürünc medal qazanmışdır.

Beynəlxalq idman yarışlarında isə rayonumuzun təmsilçiləri 7 qızıl, 1 gümüş, 3 bürünc medala layiq görülmüşlər.

RİH vətəndaşların müraciətləri ilə bağlı işlərə xüsusi diqqət yetirmişdir. 2018-ci ilin 9 ayı ərzində rayon icra hakimiyyətinə 1435 yazılı müraciət daxil olmuş, 1219 vətəndaş isə şifahi müraciət etmişdir. Bütün müraciətlərə qanunvericiliklə müəyyən olunmuş müddətlərdə baxılmış və haqlı tələbi olan vətəndaşlara müvafiq köməklik göstərilmiş, digər vətəndaşlara isə müvafiq izahatlar verilmişdir.

Rayonunun hüquq-mühafizə orqanları tərəfindən ictimai sabitliyin qorunub saxlanması üçün bütün zəruri tədbirlər həyata keçirilmişdir. Ölkəmizin dinamik inkişafına önəmli töhfələr verən Quba sakinləri bundan sonra da fədakarlıqla çalışmaq və qarşıda duran vəzifələri şərəflə yerinə yetirmək əzmindədirlər.

***İlahə HƏSƏNOVA***